# "GÖY YERƏ ZƏNG ELƏYİR"

## İbrahim Yusifoğlunun yeni kitabı

**Bəri başdan deyim ki, İbrahim Yusifoğlu Naxçıvanda, bir az da dəqiq desəm, qədim Şərurda yaşayır və elə burada da yazıb yaradır. Bir-birindən maraqlı kitabların müəllifidir. Amma bu marağın içərisində məni ən çox çəkən İbrahim müəllimin həm də uşaqlar üçün böyük ürəklə, böyük sevgiyə yazdığı söz, sənət nümunələridir. Oxuculara xatırladım ki, mən İbrahim müəllimin kitabları ilə təmasda olanda onun sözü təqdim etmək, sözü oxucuya həzm etdirmək məharəti qarşısında susuram. Çünki İbrahim Yusifoğlu təkcə şair yox, həm də pedaqoq kimi sözlə elə rəftar edir, sözü elə cilalayır ki, yaşından asılı olmayaraq hər bir oxucu o sözü, o ifadələri özününküləşdirə bilir.**

Bu gün uşaq ədəbiyyatı ilə bağlı səslənən fikirlərə cavab olaraq mən bircə onu deyə bilərəm ki, İbrahim Yusifoğlu öz yaradıcılığının böyük bir hissəsini uşaqlara həsr edib. Demək olar ki, onun şeirlərinin hamısının mövzusundan asılı olmayaraq canında, qanında uşaqlara aid olan məqamlar, vurğular, hətta ayrı-ayrı parçalar yer alır. Şeirləri oxuyanda tutaq ki, mövzu təbiətdi, həmin o təbiətə uşaq sevgisi, uşaq baxışı peşəkarcasına ştrixlənir və bu da oxucunun özünün özünə baxışında bir dəyişiklik yaradır, onu öz dününənə də qaytara bilir.

Mən İbrahim Yusifoğlunun bugünlərdə Naxçıvandan mənə göndərdiyi "Göy yerə zəng eləyir" kitabını böyük maraqla oxudum. Tam səmimiyyətimlə vurğulayıram ki, buradakı şeirləri təkcə özüm yox, həm də nəvələrim üçün də oxudum və onların təbəssümündən bir oxucu olaraq, bir baba olaraq hiss etdim ki, nəvələrim bu şeirləri yaxşı bir hədiyyə kimi qəbul edirlər. O ki qaldı kitaba... "Göy yerə zəng eləyir" kitabının ön sözünün müəllifi akademik İsa Həbibbəyli vurğulayır ki, "İbrahim Yusifoğlunun uşaq şeirləri maarifçi şeirlərin aparıcı qanadını təşkil edir". Bu başlıqla hörmətli akademikimiz həm də onu vurğulayır ki, İbrahimin uşaq şeirləri müasir mərhələdə uşaq ədəbiyyatının inkişaf etdirilməsinə böyük töhfədir. Eləcə də zəhmət və istedad bu şeirlərin yaranışında öz qətiyyətini, öz keyfiyyətini sərgiləyə bilir. Bu kitabın oxuculara təqdim edilməsində əməyi olan, yəni oxucu ilə İbrahim Yusifoğlu arasında münasibətləri şaxələndirən filologiya üzrə fəlsəfə doktoru şair Həsənəli Eyvazlı yazır ki, "İbrahim Yusifoğlu uşaq şeirlərində sözləri mənalandırmağı bacarır". Bu da o deməkdir ki, şair sözün bütün qatlarını vərəqləyə bilir, sözün bütün qatlarını oxucu qarşısında açır. Bu rəngarənglik də uşaqların həm könlünü oxşayır, həm də diqqətini çəkir. Məsələn:




**Baba can, ay baba can,**
**Nənəmi də tez çağır.**
**Göydə olan ulduzlar,**
**Qar olub yerə yağır.**

Və yaxud:

**Çayın sahilindədir**
**Saragilin evləri.**
**Su daşıyır güllərə,**
**Yorulmayır əlləri.**

**Bir mahnı haray kimi,**
**Dolaşsa da elləri.**
**Saranı qorxutmayır,**
**Arpa çayın selləri.**

Bu sonuncu şeirdəki sətiraltı təqdimatın arxa planı təbii ki, yaşlı oxuculara məlumdur. Ancaq bunu uşaqlar üçün oxuyanda, onların fikirlərinin şaxələnməsi və maraq dairələri çərçivəsində Saranın, yəni Arpa çayının aşıb-daşıb Saranı alıb aparması ilə bağlı qədim bir mahnının təbliği də reallaşır. Bu artıq övladlarımızın milli-mənəvi dəyərlərə bağlılığına göstərilən xidmətdir. Və yaxud vətənlə bağlı İbrahim Yusifoğlunun yazdığı:

**Nəğmələrin ən qədimi, ulusu,**
**Meyvələrin ən şirini, sulusu,**
**Bulaqların ayna kimi durusu -**
**Vətən nəğməsi!**

Zənnimcə, bu misralardakı axıcılıq, bu misralardakı söz oyunu, üstəlik, həmin fikirlərin bilavasitə oxşar mənzərə ilə bağlılığı uşaqlar üçün həm maraq dairəsinin genişlənməsi,




həm də müqayisə etmək imkanının ortaya qoyulmasıdır. Təbii ki, hər bir uşağın öz dünyagörüşü var. Amma onlara bulaq suyunun, meyvələrin şirinliyini, nəğmələrin qədimliyini məhz bu formada təqdim etmək bilavasitə onların əlindən tutmaqdır, onların könlünə işıq salmaqdır. Düşünürəm ki, İbrahim Yusifoğlu məhz bu üsullardan istifadə etməklə yurdun dərdlərini də öz kiçik oxucularına çatdırması təqdirəlayiqdir. Məsələn:

**Üzlərə baxmağa gözüm utanır,**
**Təsəlli verməyə sözüm utanır.**
**Halına yanmağa üzüm utanır,**
**Namərdlər əlində qalan torpağım,**
**Xocalım hey, Xocalım...**

Özünüz də fikir versəniz görərsiniz ki, burda da sözün axıcılığı ilə yanaşı, fikir tutumu uşaqlara dərdi təqdim etmək baxımından çox orijinaldı. Çünki balalarımız, nəvələrimiz bu sözlərin mahiyyətini az-çox bilirlər. Elə o bildikləri sözlərdən də istifadə edib Xocalı dərdini çatdırmaq məhz İbrahim Yusifoğlu kimi qələm ustadlarımızın peşəkarlığıdır, bacarığıdır.

"Göy yerə zəng eləyir" kitabındakı bütün şeirlər, poemalar, həmçinin mənzum pyeslər demək olar ki, mövzu baxımından bir-birilə bağlıdır, bir-birini tamamlayır. Çünki İbrahim Yusifoğlu bütün kitablarını uşaqlara həsr edib və onun qəhrəmanları da uşaqların dilini, sirrini, təbiətini bilən obrazlardır. İstər müsbət, istər mənfi olmasından asılı olmayaraq, bütün obrazlar uşaq təfəkkürüylə, uşaq diliylə düşünüb danışır, amma onların bir fərqli cəhəti var ki, müsbət qəhrəmanlar özlərini sevdirir, mənfi qəhrəmanlar isə nifrət qazanırlar. Burada xüsusi vurğulamaq yerinə düşər ki, şairin mənfi qəhrəmanları torpaqlarımızı işğal etmiş düşmənlərimiz və onların prototipləridi.

Bəli, bu gün sizə təqdim etdiyim bu kitab bütün mənalarda övladlarımızın oxuması üçün yaxşı bir mənbədi, yaxşı bir vəsaitdi. Ən azından həm əqlin inkişafı, həm dilin zənginləşməsi baxımından bu kitabda uşaqlarımızın, nəvələrimizin öyrənəcəyi çox şey var. Bax elə Akifin dəcəlliyini ifadə edən bu məqamdakı kimi.

**Çöldə yağış başladı,**
**Üst-başını yaşladı.**
**Akif qaçdı eyvana,**
**Damcıları daşladı.**

Və yaxud:

**Güllərə bax, güllərə,**
**Gülər baxır güllərə.**
**Deyir güllər gecədən**
**Yamanca qorxubdular.**
**Doyunca ağlayıblar,**
**Baxın, göz yaşlarını,**
**Ləçəklər saxlayıblar.**

**Bəli, düşünürəm ki, oxucular, xüsusilə övladının, nəvəsinin mənəvi dünyasının zənginləşməsini arzulayan hər kəs övladlarına balacalar üçün bu kitabı arayıb axtaracaq və onlara nəfis tərtib olunmuş "Göy yerə zəng eləyir"i hədiyyə edəcəklər. Bu hədiyyə də həm balacaların, həm də böyüklərin ürəyincə olacaq.**

**Əbülfət MƏDƏTOĞLU**